AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİN ŞƏXSSİZ FORMALARININ KOQNİTİV-SEMANTİK TƏDQİQİ

İxtisas: 5714.01 – "Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Nərmin İmran qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Təhsil fakültəsi nəzdində İngilis dilinin leksikologiyası və üslubiyyatı-1 kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
Əfqan Əli oğlu Abdullayev

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, dosent
Kəmalə Avadır qızı Cəfərova

Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Məlahət Məmməd qızı Mürsəlova

Filologiya elmləri üzrə fəlsəfə doktoru
Pərvanə İsmayıl qızı Paşayeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
Nadir Balaoğlan oğlu Məmmədli

Dissertasiya şurasının elmi katibi: Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Sevinc Yusif qızı Məmmədova

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
Valeh Bayram oğlu Nəsibov

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. İnsan düşüncəsi axtarışlarında hüdudsuzdur. Onun elmi biliklərin müxtəlif sahələrinə nüfuzu ildən-ilə daha geniş, daha dəqiq və çoxşaxəli olur. O, yeni kəşflərə yol açır, yeni texnologiyalar yaradır, yeni ideyalar və yanaşmalar təklif edir. Onun qeyri-məhdudluğu təkcə insanın tanıdığı dünyanın qeyri-məhdud olmasında deyil, həm də inkişafın müəyyən mərhələsində toplanmış biliklərin onun keyfiyyətcə yeni transformasiyasına gətirib çıxarmasından ibarətdir ki, bunun da nəticəsində artıq başqa aspektlərdə və başqa yanaşmalardan nəzərdən keçirilən məlum hadisələr yeni izahat və şərh yaradır.

Ona görə də təbiidir ki, fikrin özü çoxsaylı tədqiqatların predmetinə çevrilir, daha doğrusu, onun əsas maddi təcəssümü insan düşüncə dünyasının əsasını təşkil edən dildir. Elmin müxtəlif sahələrində, xüsusən də fəlsəfə, məntiq, psixologiya və dilçilikdə toplanmış dil haqqında biliklər dilin mahiyyətinin, onun ətraf aləmi əks etdirməsində rolunun keyfiyyətcə dərk edilməsinə səbəb olur. Əlbəttə, bu o demək deyil ki, dilin tədqiqi onun düşüncə prosesləri ilə əlaqəsi olmadan aparılmışdır. Lakin yenə də dil vahidlərinin, hadisə və proseslərin tədqiqi sanki öz daxili qanunauyğunluqları ilə inkişaf edən mürəkkəb qapalı sistem və ya struktur hesab edilən dilin öz daxilində həyata keçirilir. Bu sistemin irəliləyişlərindən biri məşhur ikilik anlayışının meydana çıxması ilə bağlıdır: dil – dilin funksional məqsədinin dərk edilməsinə töhfə verən, onun təşkilini və inkişafını böyük ölçüdə müəyyən edən nitq. Dil sistemi dil vasitəsinə çevrilir və bu keyfiyyətdə o, kommunikativ yönümlü tədqiqat obyektinə çevrilir, burada dilin bilavasitə nitqdə həyata keçirilməsi ilə bağlı olan praqmatik aspektlərə diqqət yetirilir.

Dilin mahiyyətinin keyfiyyətcə dərk edilməsi onun koqnitiv mexanizm kimi izah edilməsi ilə bağlıdır, burada dil-vasitəsi ətraf aləm haqqında dil-fikrinə çevrilir, onun köməyi ilə bu dünya təmsil olunur, mənimsənilir, dəyişdirilir və ötürülür. Son onilliklər koqnitiv dilçiliyin yaranması və inkişafının şahidi olmuşdur ki, burada dil forması son nəticədə idrak strukturunun əksi kimi, fikrin həyata keçirilməsi forması kimi, insanın təfəkkür və idrak strukturlarının əks

olunması kimi görünür. Dilçilərin səyləri linqvistik vahidləri tam bir fikrin və ya düşüncənin çatdırılması vasitəsi kimi, əks olunan reallığı strukturlaşdırmaq və onun idrakına töhfə verməkvasitəsi kimi dəqiq öyrənməyə yönəlmişdir ki, bu da həm dilin təfsirini, həm də ona yanaşmaları kökündən dəyişdirir. Öyrənilməsi və təsviri. Bu səylərin əsas məqsədi dilin koqnitiv modelini yaratmaqdır. Bu baxımdan dilçilərin dilin tədqiqində bir istiqamət təşkil edən və "Dilin məntiqi təhlili"[1] adlanan əsərləri göstərici hesab edilə bilər.

Davam edən oriyentasiya dilin bütün aspektlərinə, o cümlədən qrammatikaya təsir edir, burada nitqin əsas hissələrindən biri kimi feilə çox diqqət yetirilir. Eyni zamanda vurğulanır ki, feilin özünəməxsus, zaman, növ və digər xüsusiyyətlərə malik olan, müəyyən psixi məzmun daşıyan, insanın psixi aləmində özünəməxsus şifahi və qeyri-verbal təmsilini oyadan dil forması mövcuddur.

Feilin iki forması var: şəxsi və şəxssiz formalar. İngilis dilində şəxssiz formalar: məsdər, cerund və feili sifət (I; II) kimi müəyyən olunur.

Şəxssiz formaların tədqiq olunduğu bir sıra mühüm əsərlər var, lakin onların dildə fəaliyyət göstərməsinin tədqiqi hələ də dilçilərin marağındadır, ona görə ki, koqnitiv yanaşma onların öyrənilməsi və təsvirinin yeni aspektlərini açır. İngilis dilinin qrammatikası dərsliklərində feilin formalarının koqnitiv əsasları barədə çox az məlumat var.

Xarici dillərin öyrənilməsinə artan ehtiyacın feil və feilin qeyri-məhdud formalarının kurrikulumun əhəmiyyətli hissəsini təşkil etdiyi müvafiq təhsil səviyyəsini nəzərdə tutması da vacibdir. Üstəlik, nitqdə qeyri-şəxsli formaların praktiki istifadəsi xüsusi bacarıqların formalaşdırılmasını və onların mənalarındakı incə fərqlərin dərk edilməsini tələb edir, xüsusən də qeyri-şəxsli formaların eyni

[1] Кубрякова, Е.С. О связях между лингвистикой текста и словообразованием / Лингвистические проблемы текста // – М.,Тр. МГПИИЯ им. М.Тореза. – 1983. Вып. 217, – с. 50-58; Поспелов, Г.Н. Теория литературы. / Г.Н.Поспелов. – М.: Высш. школа, – 1978. – 351 с.; Солганик, Г.Я. О синтаксической структуре текста // Русский язык в школе, – 1984. № 5, – с. 80-85.

funksiyalarda istifadə oluna biləcəyi və müəyyən dərəcədə bir-birini əvəz edə bildiyi hallarda.

Feil hər hansı bir şəxsin və ya obyektin hərəkətini və ya vəziyyətini bildirən nitq hissəsidir.

Feilin şəxsli formalarına onun üç şəxsdə, tək və cəmdə, indikativ və sabcanktiv, məlum və məchul formaları daxildir. Onlar cümlədə predikat rolunu oynayır və həmişə feli-predikatın şəxsə və kəmiyyətə uyğunlaşdığı bir subyektin (adətən əvəzlik və ya isim) iştirakı ilə ifadə olunur.

Feilin şəxssiz formaları: məsdər, cerund və feili sifət (I; II) hesab olunur ki, onlar şəxsli formalardan fərqli olaraq şəxs, kəmiyyət və şəkil kateqoriyalarını ehtiva edə bilmir. Onlar cümlədə predikat rolunu oynaya bilmir, lakin fərqli digər funksiyaları yerinə yetirə bilir.

Feilin şəxssiz formaları hər biri ayrılıqda olduqca maraqlı və əhəmiyyətlidir. Feilin şəxssiz formaları üçü də nitqi daha maraqlı, sadə, axıcı edir və onların yazıda, danışıqda işlədilməsi istənilən şəxsin nitqinə, yaxud yazısına rəngarənglik qatır. Bundan əlavə, hər üç formanın danışıqda, yazıda işlədilməsi yazan, yaxud danışan şəxsin savadlı, məlumatlı olmasının bariz göstəricisidir.

Feilin şəxssiz formalarının hər birinin xəbər tərkibi vardır. Məsdərlə üç xəbər tərkibi var: tamamlıq məsdər tərkibi; 2) mübtəda məsdər tərkibi; 3) for – sözönülü məsdər tərkibi; Cerundla olan tərkib: Cerund tərkibi adlanır; feili sifətlə isə altı xəbər tərkibi vardır: 1) tamamlıq feili sifət tərkibi; 2) mübtəda feili sifət tərkibi; 3) nominativ müstəqil feili sifət tərkibi; 4) sözönülü müstəqil feili sifət tərkibi; 5) feili sifətsiz nominativ müstəqil tərkib; 6) feili sifətsiz sözönülü müstəqil tərkib.

Feilin şəxssiz formaları həm Azərbaycan, həm də xarici dilçilikdə geniş şəkildə araşdırılmışdır. Azərbaycan dilçiliyində feilin şəxssiz formalarının geniş şəkildə və ətraflı tədqiq edilməsinə rast gəlmək olur. Məsələn: L.Xanbutayeva, Ə.Şirəliyev, S.Nuriyeva və başqaları; xarici dilçilikdə: V.Bolton, D. Kristal, F.Palmer, R.Karter, M.MakKarti, P.Kollins, C.Frays, S.Greenbaum, R.Kvik və başqaları; rus dilçiliyində: L.V.Kauşanskaya, N.Kobrina, A.İosifoviç və başqaları.

Müasir ingilis dilində feili sifət II ilə olan xəbər tərkiblərinə də rast gəlmək olur. Doğrudur, bu tərkiblərə kitablarda geniş şəkildə yer verilməsə də, müasir ingilis dilində feili sifət II ilə olan tərkiblər var və ingilis dilinin həm nəzəri, həm də praktik qrammatikasında ona rast gəlmək olur. Digər dilçilərdən fərqli olaraq, S.Nuriyeva "Exercises on English Verbals" adlı kitabında həmin mövzuya xüsusi bölmə həsr etmiş və feili sifət II tərkiblərini xüsusi olaraq izah etmiş, onlara aid çox sayda tapşırıqlar hazırlamışdır.

Qeyd olunan mövzunun işlənmə dərəcəsinin geniş olması onun aktuallığını şərtləndirir. İngilis dilində olan istənilən bədii, yaxud elmi əsərdə, qəzet materiallarında, TV proqramlarında və s. feilin şəxssiz formalarının işlənməsinə çox rast gəlmək mümkündür.

Tədqiqatın obyekti və predmeti. Tədqiqat işinin obyektini ingilis və Azərbaycan dillərində feilin şəxssiz formalarını ehtiva edən mətn nümunələri təşkil edir.

Tədqiqat işinin predmetini müqayisə olunan dillərdə feilin şəxssiz formalarının koqnitiv tədqiqinin ümumiləşdirilməsi və sistemləşdirilməsi təşkil edir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın əsas məqsədi ingilis və Azərbaycan mətnlərdə feilin şəxssiz formalarının koqnitiv tədqiqini müəyyənləşdirməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– müxtəlifsistemli dillərdə feilin şəxsli və şəxssiz formalarının araşdırılması;

– feil paradiqmlərinin xüsusiyyətləri müəyyən edilməsi;

– ingilis və Azərbaycan dillərində feilin şəxsli formalarının müəyyənləşdirilməsi;

– ingilis və Azərbaycan dillərində feilin şəxssiz formalarının kontekstual təhlilinin aparılması;

– ingilisdilli bədii nümunələrində feil paradiqmlərinin tədqiqinin araşdırılması;

– xarici ingilisşünaslıqda feilin tədqiqi;

– feilin şəxsli və şəxssiz formalarının linqvo-statistik tədqiqinin müəyyən edilməsi.

Tədqiqat metodları. Tədqiqat işinin aparılmasında istifadə edilən metodlar mövzu ilə sıx əlaqədar olaraq seçilir. Metodların

düzgün seçilməsi yerinə yetirilən tədqiqat işinin obyektiv nəticəsini təmin edir. Tədqiqatımızın mövzusu ilə bağlı olaraq bir neçə metodlar tətbiq olunmuşdur: linqvistik təhlil metodu, müşahidə metodu, kontrastiv-tipoloji metod, ingilis və Azərbaycan bədii mətn nümunələrinin diskursiv təhlili metodları.

Müdafiəyə çıxarılan əsas müddəalar:

– ingilis və Azərbaycan dillərində feilin tədqiqi tarixi araşdırılır;

– müqayisə edilən dillərdə feilin şəxssiz formalarının bədii mətnin formalaşmasında mühüm rol oynaması müşahidə edilir;

– müqayisə edilən dillərdə feilin şəxssiz formalarının mətnyaratma zamanı söz seçiminin praqmatik-üslubi aspektləri fərqləndirilir;

– bədii mətndə müxtəlif dil səviyyələrindən olan ifadə vasitələrinin kontekstual əlaqələri müəyyən edilir;

– bədii mətnin struktur-semantik təşkilində feilin şəxssiz formalarının mühüm rol oynaması məlum olur;

– mətnyaratma zamanı feilin şəxssiz formalarının başlıca praqmatik-üslubi funksiyaları müəyyən edilir;

– feilin şəxssiz formalarının işlənməsi tezliyi araşdırılır;

– feilin şəxssiz formalarının işlənməsinin linqvistik təhlili izah edilir.

Tədqiqatın elmi yeniliyi. İngilis və Azərbaycan dillərində feilin şəxssiz formalarının koqnitivliyinin tədqiq edilməsi özlüyündə mühüm əhəmiyyət daşıyır. Azərbaycan germanistikasında ilk dəfə olaraq, feilin şəxssiz formalarının koqnitivliyi ayrıca tədqiqat obyekti kimi tədqiq edilmişdir. İşdə müqayisə edilən dillərdə feilin şəxssiz formalarının koqnitiv tədqiqi araşdırılmış, onların mətndüzəltmə funksiyaları müəyyənləşdirilmiş və onların semantik sahələrin açılmasında koqnisiyanın rollarının müəyyən edilməsinə cəhd göstərilmişdir.

Tədqiqat işində qarşıya qoyulmuş məqsəd və vəzifələrin həllində fərqli bədii nitq nümunələrindən götürülmüş materiallara istinad etmə mətnin müxtəlif aspektlərindən təhlili baxımından diqqəti özünə cəlb edir. Təhlil və araşdırma prosesində feilin şəxssiz formalarının linqvo-statistik istifadədən irəli gələn bir sıra xüsusiyyətlərin

üzə çıxarılması və onların elmi cəhətdən əsaslandırılması mətn dilçiliyi üçün yeni olan tədqiqat üsulu kimi qiymətləndirilə bilər.

Bundan əlavə, feilin şəxssiz formalarının koqnitivliyinin mətnin düzəldilməsində yerinə yetirdiyi funksiyalar və onların arasındakı qarşılıqlı əlaqələr, onların mətnyaratmada rolları tədqiqatın elmi yeniliyi kimi müəyyənləşdirilir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Dissertasiya işində feilin şəxssiz formalarının koqnitiv aspektləri müəyyən edilmişdir. Onların bədii mətndə reallaşmasının öz təsdiqini tapması ilə yanaşı, sözlərin tematik və ya semantik ümumiliyinə əsaslanan fərqli mətnyaratma imkanları və mətnyaratmada rolları da araşdırılıb üzə çıxarılmışdır. İşdə ilk dəfə olaraq, feilin şəxssiz formalarının koqnitiv funksiyalarının, onların mətnyaratma perspektivlərinin işıqlandırılmasına cəhd göstərilmişdir. Dissertasiya işinin nəzəri müddəaları dilçiliyin sahələri ilə bağlı tədqiqatlar üçün əhəmiyyətli hesab edilir. Tədqiqat işinin praktik əhəmiyyəti onun mətn dilçiliyinə aid dərsliklərin yazılmasında, tədqiqatın nəticələrindən universitetlərin filoloji fakültələrində feilin şəxssiz formaları ilə bağlı mühazirələrdə, praktik kurslarda istifadə edilə bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin mövzusu ilə əlaqədar aparılmış araşdırmaların əsas tezis və müddəaları elmi məcmuə, jurnal və toplularda çap olunmuş, iddiaçının Beynəlxalq və Respublika elmi konfranslarında məruzələri dinlənilmiş və tezisləri çapdan çıxmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya Azərbaycan Dillər Universitetinin Təhsil fakültəsi nəzdində İngilis dilinin leksikologiyası və üslubiyyatı-1 kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, 2 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 6 səhifə, 10755 işarə, I fəsil 57 səhifə, 97499 işarə, II fəsil 55 səhifə, 97030 işarə, Nəticə hissəsi 2 səhifə, 3451 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 208735 işarədir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqat işinin aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın strukturu haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Müxtəlifsistemli dillərdə feilin şəxsli və şəxssiz formaları"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil *"Xarici dilçilikdə feilin tədqiqi"* adlanır. Dilçilik elminin diapazonu genişdir və demək olar ki, bu elm hələ də tədqiqinin başlanğıc mərhələsindədir. Dilçilik elminin ayrılmaz tərkibi olan qrammatika ənənəvi dilçilikdən müasir dilçiliyə müəyyən bir inkişaf yolu keçmiş və struktur qrammatikaya ənənəvi yanaşma tətbiq edildikdən sonra inkişaf etməyə başlamışdır.

Ənənəvi qrammatika Qədim Yunanıstanda e.ə. V əsrdə yaranmışdır və o vaxtlar fəlsəfə və ədəbi tənqid ilə sıx bağlı olmuşdur. Əsrlər boyu "məqsəd, keyfiyyət, əsas fərziyyə və təhlil metodu" baxımından çox dəyişən, yeni ideya və təriflərlə zəngin çoxsaylı qrammatikalar təqdim edilmişdir. Hər bir qrammatika sistemində çatışmazlıq və başqa sistemlər tərəfindən müəyyənləşən səhvlərin qəbul edilməsinə baxmayaraq, hər bir qrammatik sistem özünəməxsus şəkildə məhsuldar olmuşdur.

Qrammatika nitq hissələrindən bəhs edən bir elmdir və nitq hissələri çox vaxt dilin sintaktik təhlili üçün əsas götürülür. D.Kristal yazır: *"Dilçilər qənaətbəxş şəkildə ingilis dilinin söz siniflərini təsvir edə biləcəklərini güman edir və nitq hissələrini sadəcə "qrammatikanın nəzəri preambula hissəsi" kimi qəbul edirlər"* [2]. O, bu yanaşmanı səhv hesab edirdi, çünki fikirləşirdi ki, nitq hissələri qrammatikanın daha mürəkkəb hissələrindən təcrid olunaraq ayrılıqda qavranıla bilməz. Bir növ nitq hissələri ilə qrammatikanın digər hissələri arasında əlaqə çox mürəkkəbdir, çünki o, qarşılıqlı münasibət ehtiva edir: nitq hissələri qrammatikanın digər hissələri

[2] Crystal, D. English word classes. / D.Crystal. – London: Lingua, – 1967. – p.24

baxımından və digər hissələr isə nitq hissələri baxımından müəyyən edilir.

Nitq hissələrinin qədim təsnifatına nəzər salsaq, görərik ki, M.Maiterə görə isimlər və feillər nitqin iki əsas hissəsini təşkil edirdi. Onun yanaşması böyük filosofların, yəni Aristotel və Teodekstin irəli sürdüyü fikirlərlə dəstəklənirdi. Müəllifin sözlərinə görə, digər nitq hissələri sonrakı filosoflar, əsasən də Stoik tərəfindən tədricən artırılmışdır. O, feili belə tərif edirdi:

"Feillər hərəkəti bildirir və hər bir hərəkət mütləq olaraq hansısa "olmanı" və ya "mövcudluğu" nəzərdə tutur"[3].

R.Qarnetin fikirlərinə əsasən *"söz istər mövcudluğu, istər nəsə etməyi, və ya əziyyət çəkməyi ifadə edirsə, o, feildir"*[4].

İngilis dilinin lüğət tərkibində müxtəlif növ feillərin hər biri – leksik, flektiv, törəmə və s. feillər yer almışdır. Feil mərkəzdə fəaliyyət göstərən tərkib hissəsi olduğundan danışan üçün feilsiz heç bir cümlənin əhəmiyyəti ola bilməz. Feillər xarici (*run – qaçmaq, jump – tullanmaq, work – işləmək*) və daxili (*love – sevmək, think – düşünmək, consider – nəzərə almaq*) hərəkətlər ifadə edən sözlərdir. Feillər olmadan nəsə etmək, nəsə hiss etmək və bəzən hətta mövcud olmaq belə qeyri-mümkündür.

İngilis qrammatisti və politoloqu Ceyms Haris qrammatika kitabını M.Maiterdən təxminən 40 il sonra (1751-ci il) nəşr etdirmişdir. Burada ayrıca bir başlıq sifətlərə, feillərə və hissəciklərə həsr edilmiş və hər biri üçün ətraflı izahlar və ya şərhlər təqdim olunmuşdu. C.Haris, kitabında qeyd edirdi ki, *"bütün fellər enerji ifadə edir" (o, enerji dedikdə* "hərəkət və onun mahiyyətini" nəzərdə tuturdu)[5].

İngilis jurnalisti və hüquqşünası Ser Con Stodart qeyd edirdi ki, feil nitqin bir hissəsidir və Latın dilindəki "verbum" sözündən yaranmışdır. O, bu faktı Aristotelin yunan dilində feil üçün söylədiyi oxşar fikirlə müqayisə edərək bu nəticəyə gəlmişdi ki, *"feil tam bir*

[3] Maittaire, M. The English Grammar. / M.Maittaire. – New-York: Gale ECCO publishing, – 2010. – p.103

[4] https://stars.library.ucf.edu/cgi/viewcontent.cgi?article=7097&context=etd 25 p.

[5] Maittaire, M. The English Grammar. / M.Maittaire. – New-York. Gale ECCO publishing, – 2010. – p.48

sözdür, ... vaxt baxımından vacibidir". C.Stodart etiraf edirdi ki, hətta onun dövründə də feil müxtəlif filosoflar tərəfindən fərqli şəkildə müəyyən edilmişdi[6]. O, feilləri ayrıca bir sinifdə qruplaşdıraraq, onları qrupdakı bir çox sözlərin bizə "nə etdiyini" və ya "mövcud olduğunu izah edən" nitq hissəsi kimi müəyyənləşdirirdi. Artıq XIX əsrdən başlayaraq tələbələr nitq hissələri, cümlə sxemləri və onların təhlili haqqında məlumatlı idilər. Onlar 10 nitq hissəsindən "hərəkət, mövcudluq, varlıq vəziyyətini" ifa edən feil də daxil olmaqla altısını nəzərə almışdılar. Qeyd edək ki, H.Svitin əsərlərinə qədər qrammatik nəzəriyyələrə aid fundamental fikirlər ifadə edilməmişdir.

O.Yespersenin fikrincə, feillər fərqli xüsusiyyətlərinə görə (cümlənin nüvəsi olduqlarına, ifadələrin dərin strukturunda müəyyən forma və ya dərəcədə konkret və ya mücərrəd hərəkətə malik olduqlarına görə və s.) ayrıca söz sinfi adlandırılmalıdırlar. Cümlə adətən feildən ibarət olur, lakin bəzən, feilsiz birləşmələr də işlədilir ki, bunlara da adətən "tam cümlələr" deyilir. O, latın dilində "Doqquz Zaman Sistemi"nin və ingilis dilində "Yeddi Zaman"ın mövcudluğunu fərz edir və bu zamanların kökünün üç əsas zamandan – indiki, keçmiş və gələcək zamanlardan – götürüldüyünü şərh edirdi[7].

Feilin ingilis dilində cəmi 5 fərqli flektiv (hal) forması vardır və onlar Norman Stageberg tərəfindən morfologiyada təfərrüatı ilə müzakirə olunub. O, feilin on nitq hissəsindən biri olduğunu irəli sürür və həmişə feilin tək bir söz olduğunu əlavə edir. Sonrakı mərhələdə fel üç və ya daha çox fleksiya (hal) formalarının paradiqmalarından ibarət ola bilər. Məsələn, "*set*" feli yalnız üç fleksiya (hal) formasına malikdir (*set, sets, setting*), "*buy*" felinin isə daha çox fleksiya (hal) forması mövcuddur. "*Buy*" felinin keçmiş qeyri müəyyən zaman və Feli Sifət 2 forması eynidir: "*bought*". Nəticə etibarilə "*buy*" feli 4 fleksiya (hal) formasından ibarətdir[8] .

[6] https://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone. 0102882 17 p.

[7] Jesperson, O. The Philosophy of Grammar. / O.Jesperson. – New York: w. w. Norton, and Company, Inc., – 1992. – p.98

[8] Stageberg, N.C. An Introductory English Grammar. / N.C.Stageberg. – New York: Holt, Rinehart and Winston, Inc., – 1965. – p.30-40

Birinci fəslin ikinci yarımfəsli "*Konsept və feil paradiqmlərinin xüsusiyyətləri" adlanır.* Semantika son dövrlərə kimi söz mənasının açılışı ilə məşğul olurdu. Lakin koqnitiv dilçilik mənanı dil formalarına bağlı mental reprezentasiya vahidləri kimi götürdüyü üçün, o, təkcə sözlə kifayətlənməyib, digər dil vahidlərini də öyrənməyi qarşısına məqsəd qoyur. Bu vahidlər ünsiyyət üçün əsas olan informasiyaları daşıyır və onların vasitəsilə insana ətraf aləmlə əlaqə yarada bilir. Məna problemi, bir tərəfdən, mənanın yadda saxlanılması, digər tərəfdən isə ətraf aləmə münasibətin ifadəsi yolları ilə bağlıdır. İnsanın dil səriştəsi söyləmləri məna daşıyan vahid kimi başa düşməyə imkan verir. Semantik bilgi sistemi dil və konseptual təsəvvürləri bir-birinə bağlayır.

Birinci halda kontekstin təsiri olmadan, qrammatik cəhətdən müəyyən edilmiş cümlələr nəzərdə tutulur. Sözlərdə bu, yaddaşda izi olan leksemlərin mənasından, cümlələrdə isə semantik həmrəylik əsasında birləşmədə iştirak edən bütün leksemlərin mənası və qrammatik əlaqələr sayəsində müəyyən edilir. İkinci halda koqnitivlik kontekstdən asılı olaraq açılır. O, sözdə və cümlədə kontekst amilindən asılı olaraq müəyyənləşir. Üçüncü halda isə danışanın və dinləyənin ünsiyyət niyyətinin necə həyata keçirilməsi nəzərdə tutulur. İndi fikrimizi izah etmək üçün bir neçə fakta müraciət edək:

1. /İndi sədr çıxış edəcəkdir//; 2. /İndi sədr çıxış edəcəkdir//

Bu iki ifadə bir-birinin təkrarı olmaya bilər. Praqmatik yanaşma və kontekst onların mənasını müxtəlif cür ifadə etməyə imkan verir. Birinci situasiyada qapının qarşısında dayanmış adam gecikənləri zala buraxmayaraq deyir: İndi sədr çıxış edəcək, yəni mane olmaq olmaz. Bu vəziyyət idarə heyəti və ya iclasın sədri ilə əlaqədar ola bilər. İstənilən halda danışan qapıdan içəri keçməyin qeyri-mümkünlüyünü əsaslandırmaq üçün bu ifadəni istifadə edir. İkinci situasiyada isə eyni qurumun üzvü sevinə-sevinə öz cəmiyyət üzvünə xəbər verib deyir: İndi sədr çıxış edəcəkdir. Bu vəziyyətdə də tamamilə aydındır ki, söhbət cəmiyyətin sədrindən gedir. Həm də həmsöhbətə bildirmək istəyir ki, "getməyin, çünki sədrimiz çıxış edəcək". Göründüyü kimi, eyni leksem tərkibinə və sintaktik struktura malik cümlə kontekstdən və praqmatik yanaşmadan asılı

olaraq iki mənada izah oluna bilər. F.Veysəlli yazır ki, koqnitivlik həm praqmatik, həm də kontekstual mənanı nəzərə alır[9]. Bu zaman kontekstual vahidlər şüurun aktivləşməsi səviyyəsində əks olunur. Bir neçə nümunə təqdim edək: 1) Universitet teatrın yaxınlığında yerləşir; 2) Universitet siyasi cəhətdən sağ təmayüllüdür; 3) Universitet bu gənclər üçün vacib deyil. Birinci misalda bina, ikinci misalda universitetin siyasi durumu, üçüncüdə isə məşğuliyyət tərzi kimi işlənmişdir. Bu da onu göstərir ki, mental leksikonda həkk olunmuş konsept prototip kateqoriyasının bu və ya digər nümayəndəsini bildirməklə konkret məqamda bu və ya digər mənada işlənir. Bu zaman konsept və məna üst-üstə düşür. Bəzən konsept və məna bir-birindən ayrılır. Aktual mənalar konseptual xüsusiləşmənin nəticəsi kimi götürülür. Yuxarıdakı nümunələrdə universitet bütün mənalarda kontekstdən asılı olaraq konkret məna ifadə edir. Ona görə də məna ilə konsepti kəskin şəkildə ayırmaq düz deyil. Üçmərhələli semantik təhlil qeyri-modal, spesifik konsept, leksik məna və kontekstlə bağlı aktuallaşan mənaları fərqləndirir. Axırıncı koqnitiv prosesin nəticəsi kimi təsvir oluna bilər. Məna kontekstlə dəyişikliyə uğrayır və təşkil olunaraq müxtəlif çalarları ifadə edir.

N.Ellisin qənaətinə görə, cümlədə ifadə olunan məna istifadədən əvvəl potensial olaraq mövcud olur. Məsələn, cerund-feili sifət konstruksiyalarının istifadəsi onun verbal olaraq işlədilməsinə əsaslanır[10]. Bu potensial mənalar sxematik hesab olunur və bu sxemlər müxtəlif yollarla fəallaşır. Proqressiv konstruksiyalarda hadisələrin daxili müəyyən mövzuya aid bir fakt kimi təqdim edilir. Bu, hadisənin, içindəki mövzunun mövqeyinə görə tamamlanmış və hələ tamamlanmamış bir hissəyə bölündüyü şəkildə təqdimatını verir[11]. Hadisənin daxilinə baxış onu göstərir ki, o, (hadisə) bir qədər sonra cümlənin, yaxud mətnin daxilində implisit şəkildə ifadə olunacaqdır. Aşağıdakı nümunələrə baxaq:

[9] Veysəlli, F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2015. – s.44

[10] Ellis, N.C. Cognitive approaches to SLA. // Annual Review of Applied Linguistics, – 1999. № 19, – p.22

[11] Ellis, N.C. At the interface: Dynamic interactions of explicit and implicit language knowledge. // Studies in Second Language Acquisition, – 2005. №27, – p.305-352

/A man resembling my father walked in// Resembling – Feili sifət I kimi işlənmişdir. (Atamı xatırladan adam otağa daxil oldu).

Bu cümlədə vəziyyət var, yəni cümlədə proqressivlik müşahidə olunmur. Cümlədə eyni zamanda hərəkətin natamamlıq təəssürat yaratması da hiss olunmur. Hərəkət tamamlanmışdır.

Digər nümunə:

/A man driving a Mercedes waved at us// Driving – Feili sifət I kimi işlənmişdir; (Mersedes avtomobilini sürən kişi bizə əl etdi).

Bu nümunədə isə hərəkət var. Natamamlıq və ya mütərəqqi hərəkətlilik hiss yaradan heç bir amil yoxdur.

Digər nümunəni nəzərdən keçirək:

/*Climbing* a mountain is very good for one's stamina// (Dağa qalxmaq insanın dözümlülüyü üçün çox yaxşıdır.) (Climbing – nə sualına cavab verir və feilin şəxssiz formalarından cerund hesab olunur).

Konseptlər insan şüuruna məxsusdur və onlar təmiz əqli səciyyəlidir. Ə.Abdullayev yazır: *"Konseptlər insan psixikasında ətraf aləmin ayrı-ayrı fraqmentlərinin, aspektlərinin daxili nümayəndələridir, yəni onlar daxilimizdədir"* [12] . Konseplər bütövlükdə təfəkkür və nitq fəaliyyəti aktları zamanı mühafizə olunan, aktivləşən və istifadə edilən bilik hissələridir. Onlar təhlil olunmayan, informasiyanın koqnitiv işlənməsi prosesində daha kiçik hissələrə bölünə bilməyən məna vahidləridir. Bir sözlə konseptlər ruhun özünəməxsus xüsusiyyəti hesab edilə bilər.

İnsan beynində yaranan konseptlər hadisə və əşyaların təxəyyüldə yaradılmasıdır ki, bu da əşya və hadisələrin insan beynində formalaşmasına gətirib çıxarır. N.Xomski yazır: *"İnsan beynində yaranan konseptlər sonsuz miqdarda cümlənin forma və mənasını müəyyənləşdirir ki, bu da bizim bilgi və fikrimizin sonsuz olması deməkdir"*[13]. O iddia edir ki, bütün dillər eyni model üzrə qurulub, amma bu o demək deyildir ki, ayrı-ayrı dillər arasında eyni cür uyğunluq var və müxtəlif kulturoloji dillərdə danışan insanlar

[12] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, – 2011. – s.189

[13] Chomsky, N. Knowledge of language: Its nature, origin, and use / N.Chomsky. – New York: Praeger, – 1968. – p.189

eyni əşya və hadisələrin konseptual izahını, yaxud təsvirini eyni cür yaradırlar. O qeyd edir ki, müxtəlif dillərdə konseptlərin yaranması insanın dil səriştəsi və onun işlənməsi ilə bağlıdır. O qeyd edir ki, konseptin insan təxəyyülündə yaranması fərdi xarakter daşıyır çünki hər bir insanda konseptin formalaşması onun kulturoloji dil istifadəsindən və yaşadığı şəraitdən asılıdır[14]. Konseptlər ətraf aləm və orada baş verən bütün dəyişikliyi özündə əks etdirir, daimi dəyişən insan biliklərinin özünəməxsus xüsusiyyəti də bununla izah edilir[15]. Bu da qeyd etdiyimiz kimi danışanın dil nəzəriyyəsinin üzərində qurulur. Konseptlərin yaranmasında dilin mənimsənilməsi vacib faktor hesab edilir. Bu zaman genetik faktorları da unutmaq olmaz.

Feilin şəxssiz formalarının koqnitivliyini tədqiq edərkən bəzi feillər diqqətimiz cəlb etdi. Məsələn: /start to/ və /begin to/ feilləri. Hər ikisi hərəkətin başlanğıcını göstərir. İki cümləni müqayisə edək:

(1) *All of a sudden it started to rain.* (Birdən yağış yağmağa başladı).

(2) *"Kestrel started to say something, but decided not to. She would listen until he was finished, but it was not easy to hold her questions"*[16]. (*Kestrel nəsə deməyə başladı, lakin sonra deməməyə qərar verdi. O, o (Kestrel) sözünü bitirənə qədər dinləyəcəkdi, lakin onun suallarını saxlamaq asan deyildi*).

P.Duffley yazır ki, /begin+to/ həmişə baş verən hadisəyə təşəbbüsü əks etdirir[17]. Məsələn:

(3) *"The woman giggled and began to say something about a "Miller house" when her husband glared at her and sternly shushed her"*[18]. (*Əri ona baxıb sərt şəkildə susdurduqda qadın güldü və "Dəyirmançı evi" haqqında nəsə deməyə başladı*).

---

[14] Chomsky, N. Knowledge of language: Its nature, origin, and use / N.Chomsky. – New York: Praeger, – 1968. – p.189

[15] Yenə orada, s.190

[16] Marcus G., Davis E. Insights for AI from the Human Mind: [Electronic resource] // Communications of the ACM, – 2021. Vol. 64, No. 1, – p.38-41. URL: www.magespace.net/stories/id/id21.html

[17] Duffley, P.J. The English infinitive: [Electronic resource] / – London: Longman, – 1992. URL: www.wirenot.net/X/Stories/Ghost/Ghost%20P-S/redeye.shtml

[18] Yenə orada

Bu cür feillərin feilin şəxssiz formalarını təqdim edərkən işlənmə xüsusiyyətləri, yəni koqnitiv semantikası potensial və həqiqi mənaların fərqləndirilməsi ilə əlaqələndirilir. Bunlar kifayət qədər sadə və qeyri-rəsmi mənaya əsaslanan prinsiplər hesab olunur.

Məsdər və cerund-feili sifət formalarının fərqləndirici xüsusiyyətlərini və koqnitiv yükünü müəyyən etmək üçün üç əsas prinsip fərqləndirilir: 1) şəxssiz formaların özlərinin semantik məzmunu; 2) əsas feilin leksik məzmunu; 3) əsas feilin cümlədəki funksiyası[19].

Feilin şəxssiz formalarının koqnitiv məzmunu uzun illərdir ki, həm dilçilərin, həm də qrammatistlərin müzakirə mövzusu olmuşdur. Müasir ingilis dilinin qrammatikasını öyrənənlər bu formaların koqnitiv mənalarını tərif etməkdən ümumiyyətlə çəkinmişlər. Onlar feilin şəxssiz formalarının sadə zaman formalarında işlədilməsinə, eyni zamanda davamedici və bitmiş zaman formalarında işlədilməsinə diqqəti cəlb edirdilər[20].

E.Kruisinga yazır ki, feilin şəxssiz formalarına aid ən müasir koqnitiv qrammatika eyni ənənəyə sadiq qalır, yəni –ing sözlər (cerund və feili sifət I) proqressiv konstruksiyalardakı eyni dəyərini (işlədilmə dəyərini) saxlayır. Məlumdur ki, bütün davamedici zaman formaları məlum növdə əsas feilin sonuna –ing şəkilçisi artırılmaqla düzəlir[21]. Məsələn:

/She is pruning the roses// (O, qızılgülləri budayır) cümləsində hərəkət danışıq zamanda baş verir. Deməli, əsas feil hərəkətin hazırda baş verməsinin göstəricisidir. Feili sifət kimi, cerund da əsas feilin sonuna /–ing/ şəkilçisi artırmaqla düzəlir. Məlum olduğu kimi, cerund tarixi baxımdan feili isimdən əmələ gəlmişdir[22].

/Cooking is my sister's hobby// (Yemək bişirmək bacımın hobbisidir). Bu cümlədə cerund ümumi hərəkəti bildirir, yəni

[19] Duffley, P.J. Gerund versus infinitive as complements of transitive verbs in English: The problems of 'tense' and 'control' // Journal of English Linguistics, – 2000. № 28, – p.221

[20] Kruisinga, E. An English Grammar. /Vol 1: Accidence and syntax, part 2, 8th ed./ E.Kruisinga, P.A.Erades. – Groningen: P. Noordhoff, – 1960. – p.259

[21] Yenə orada, s.260

[22] Hamawand, Z. A temporal Complement Clauses in English: a Cognitive Grammar Analysis. / Z.Hamawand. – Munich: Lincom Europa, – 2002. – p.99

kontekstdən asılı olaraq cümləni həm indiki, keçmiş, həm də gələcək zaman aid edə bilərik. Bunun kimi nümunələrin sayını artıra bilərik:

Crossing the bridge *was* very difficult. (Körpüdən keçmək çox çətin idi).

The doctor informs us that *smoking hurts* us. (Həkim siqaretin bizə zərər verdiyini bildirir).

"Dancing was the only thing she knew, but she knew just as clearly that at thirty, she could not return to ballet, after more than eleven years without dancing"[23]. (Rəqs onun bildiyi yeganə şey idi, lakin o, on bir ildən çox rəqs etmədikdən sonra otuz yaşında artıq baletə qayıda bilməyəcəyini aydın bilirdi).

To+infinitiv konstruksiyasının koqnitiv tərkibi cerund və feili sifətdə olduğundan daha mürəkkəbdir. Belə ki, bu konstruksiya iki sözdən ibarət olur: to+to-suz məsdər (yəni bare infinitive). Sonuncu feilin sadə formasının mücərrəd variantıdır və sadəcə olaraq zamana uyğun olaraq hadisənin müəyyən icra vaxtını göstərir, yəni hadisənin baş verdiyi real zamanı əks etdirir[24]. Burada feilin hərəkət və ya vəziyyət bildirməsi ön plana çıxır. Məsələn:

/*He did read my letter//* (O, məktubumu oxudu). Bu nümunədə hərəkət müşahidə olunduğu halda, /*He may be here right now//* (O, indi burada ola bilər) cümləsində vəziyyət müşahidə olunur.

Birinci fəslin üçüncü yarımfəsli *"Feilin şəxsli və şəxssiz formaları"* adlanır.

Feillərin təsnifatında əsas yeri şəxs kateqoriyasına münasibətə görə aparılan bölgü təşkil edir. Bu baxımdan ingilis dili feilləri şəxsli və şəxssiz olmaqla iki yerə bölünür. Feilin şəxsli forması şəxsə və kəmiyyətə görə dəyişir.

Felin şəxsli formaları zaman, şəxs və kəmiyyət kateqoriyasına malik olur. Məsələn:

I go (mən gedirəm), *she goes* (o gedir), *we went* (biz getdik), etc.

She was waiting in the room before he came in. (O, otağa daxil olanda, o, otaqda otururdu).

---

[23] Steel, D. Zoya. / D.Steel. – USA: Dell Publishing Group, – 1989. – p.311

[24] Hirtle, W. Language in the Mind: an Introduction to Guillaume's Theory. / W.Hirtle. – Montreal and Kingston: McGill-Queen's Univ. Press, – 2007. – p.115

Does your brother know my brother? (Sənin qardaşın mənim qardaşımı tanıyır?)

The night before he had to leave, they sat on the small sofa and looked at old family photos. (Bir gecə əvvəl o, yola düşməmişdən qabaq, onlar balaca divanın üstündə oturub köhnə ailə şəkillərinə baxırdılar).

Aren't you a bit late? (Sən bir qədər gecikmisən?)

Feilin şəxssiz formaları isə zaman, şəxs və kəmiyyət kateqoriyasına malik olmur. Səciyyəvi olaraq, onlarda məsdər (*to* və *to* ədatsız), *-ing* formalı (*-ed*) (*going, gone, done* və s.) formalar olur.

L.U.Çeyf yazır ki, normal olaraq cümlədə bir mübtəda və bir xəbər olur[25]. Cümlənin mübtədası və xəbəri varsa bu şəxsli hesab edilir. Nümunələrə baxaq:

We want her to be here. (Biz onun burada olmasını istəyirik).

I like taking photographs of trees. (Mən ağacların şəklini çəkməyi xoşlayıram).

Coming home last night, I saw a man run across the street. (Keçən gecə evə gələndə, keçədən keçən bir kişi gördüm).

Feilin şəxssiz formaları bir sıra xüsusiyyətlərinə görə şəxsli formalardan fərqlənir. Onlar aşağıdakılardı:

1) feilin şəxsli formalarından fərqli olaraq, şəxssiz formaları kəmiyyət, şəkil (mood) və şəxs kateqoriyalarına malik deyil.

2) Feilin şəxssiz formaları ikili xassəyə malikdir, məsdər və cerundun feil və isim; feili sifətin isə feil və sifət xassəsi vardır.

3) Feilin şəxssiz formaları ayrılıqda cümlənin xəbəri ola bilmir. Onlar ancaq xəbərin bir hissəsi funksiyasında işlənir.

4) Feilin şəxsli formasından fərqli olaraq onun şəxssiz formalarına xas olan zaman məfhumu mütləq deyil, nisbidir. Onların zaman anlayışı şəxsli formanın zaman anlayışından asılı olur.

R.Dixon qeyd edir ki, feilin şəxssiz formalarının feil əlamətləri aşağıdakılardır[26]:

---

[25] Chafe, L.W. Structure and meaning of Language. /L.W.Chafe. – Cambridge: Cambridge University Press, first edition, – 1970. – p.83

[26] Dixon, R.M.W. A New Approach 10 English Grammar, on Semantic Principles. / R.M.W.Dixon. – Oxford: Clarendon Press, – 1992. – p.116

1) onlara xas əlamətlər, lakin özünəməxsus xüsusiyyətlərə də malik olan, zaman, tərz və növ;

2) vasitəsiz tamamlıq qəbul etmək qabiliyyəti və zərfliklə təyin edilməsidir. Bu xüsusiyyət felin şəxsli formalarının daxil ola bildikləri eyni tipli birləşmələrdə öz əksini tapmasıdır. Beləliklə, feilik əlaməti ingilis dilində feilin şəxssiz formalarında zaman, tərz və növ kateqoriyalarında və həmçinin öyrənilən formaların fəaliyyət göstərdiyi söz birləşmələrinin xarakteristikasında öz əksini tapır.

Müqayisə edək: /reading a book aloud/ – /without reading a book aloud/ – /to read a book aloud/ – /I am reading a book aloud//

Əksər linqvistik mənbələrdə feilin şəxsli formalarını şəxssiz formalardan fərqləndirən əsas əlamət kimi feili sifət, cerund və məsdərə şəxs, zaman və tərz qrammatik kateqoriyalarının məxsus olmamasıdır ki, bunun nəticəsi kimi, onlar feilin şəxsli formalarına xas olan xəbər sintaktik funksiyasını yerinə yetirə bilməməsidir.

R.Dixonun qənaətinə görə, feilin şəxssiz formalarının ismi xüsusiyyətləri onların yerinə yetirdikləri koqnitiv-semantik funksiyalarda təzahür edir [27]. Bu məsələdə biz də R.Dixonun fikri ilə razılaşırıq. Belə ki, bu münasibətdə feilin şəxssiz formaları eynicinsli deyildir və hər bir forma onu digərlərindən fərqləndirən, yəni yalnız ona xas mənalarda çıxış etməsindədir.

Feilin əxssiz formaları (məsdər və cerund) onlara xas olan ismi və sifətə xas olan (feili sifət) xüsusiyyətləri hifz edib saxlayır, halbuki feili əlamətlər onların tarixi inkişaf prosesində qazandıqları keyfiyyətdir. Şəxssiz formaların inkişaf tarixi onların tədricən feili sistemə daxil olmasının tarixidir və bunun nəticəsi kimi müasir ingilis dilində onların xüsusiyyətlərinin üzə çıxarılmasında həqiqi ismi xüsusiyyətlə müqayisədə feili xüsusiyyətləri daha mühümdür.

Feilin şəxsli forması ilə şəxssiz forması arasındakı fərqliliklər belə sıralanır:

1. Felin şəxsli formasından fərqli olaraq, onun şəxssiz formaları kəmiyyət, şəkil və şəxs kateqoriyasını ehtiva etmir;

2. Feilin şəxssiz formaları ikili xassəyə malikdir. Məsdər və cerund feil və isim; feili sifət isə feil və isim xassəsinə malikdir;

[27] Dixon, R.M.W. The semantic basis of syntactic properties // Proceedings of the Berkeley Linguistic Society, – 1984. №10, – p.583

3. Feilin şəxssiz formaları ayrılıqda cümlənin xəbəri ola bilmir. Onlar ancaq xəbərin bir hissəsi funksiyasında çıxış edir[28].

Dissertasiyanın ikinci fəsli **"Feilin şəxsli və şəxssiz formalarının linqvo-statistik tədqiqi"** adlanır.

Bu fəsil iki yarımfəsildən ibarətdir. İkinci fəslin birinci yarımfəsli *"Feilin şəxssiz formalarının işlənməsi tezliyi"* adlanır.

Koqnitiv dilçilik koqnitiv funksiyada dilin öyrənilməsi anlamını verir. Koqnitiv terminin mənasını izah edək. İngilis dilinin Oksford lüğətində koqnitiv termini belə izah edilir: 1) "fərdin şüurlu intellektual fəaliyyət ilə əlaqəsi olan, bağlı olan deməkdir (düşüncəsinin yaranması ilə, düşünmə səbəbi ilə, yada saxlaması ilə və s.); 2) dəyişdirilə bilən empirik faktiki biliklərə əsaslanan[29]. Daha aydın izah üçün nümunə vermək istəsək belə nümunə verə bilərik: "Öyrənmə konsepti özü də koqnisiyaya nümunə ola bilər. Bu, öyrənilənləri xatırlayarkən beynin əlaqə yaratma üsulu ilə bağlıdır. Məntiqi mülahizə yürütmək bacarığı idrak, problem həll etmək və məlumat haqqında mühakimə yürütmək üçün əla nümunədir.

Məlumat üçün bildirək ki, "koqnitiv" terminini başqa cür də adlandırmaq olar. Məsələn: intellective (intelektual), mental (əqli), perceptive (qavrayış) və s.

E.Vyvyan və G.Melanie yazırlar: *"Dil, düşüncə və ideyaların təbiəti, strukturu və təşkili haqqında anlayışlar təmin edən idrak funksiyasına bir pəncərə təqdim edir. Beləliklə, koqnitiv dilçiliyin dilin öyrənilməsinə digər yanaşmalardan fərqləndiyi ən mühüm yol budur ki, burada dilin özünü əks etdirməsi fərz edilir, yəni insan şüurunun müəyyən əsas xüsusiyyətləri və dizayn xüsusiyyətləri"*[30].

Daha sonra onlar düşüncələrini bu şəkildə davam etdirirlər: "Koqnitiv dilçilik dilin idrak funksiyasında öyrənilməsidir, burada koqnitiv dünya ilə qarşılaşmalarımızla informasiya strukturlarının həlledici rolu da ön plana çıxarılır. Koqnitiv dilçilik... dünya ilə qarşılıqlı əlaqəmizin informasiya strukturları vasitəsilə vasitəçi

[28] Duffley, P.J. The English gerund-participle in cognitive grammar. // LACUS Forum, – 2005. vol. 32, – p. 302

[29] Oxford Advanced Learner's Dictionary / – Oxford: Oxford University Press, – 2005. – 1780 p.1111

[30] Evans, V. Cognitive Linguistics: An Introduction. / V.Evans, M.Green. – UK: Routledge, – 2006. – p.11

olduğunu diktə edir. O, idrak psixologiyasından daha spesifikdir, lakin təbii dilə bu məlumatı təşkil etmək, emal etmək və çatdırmaq vasitəsi kimi diqqət yetirməklə...insanlara çatdırır[31].

D.Geeraerts koqnitiv dilçiliyi belə ifadə edir: *"Koqnitiv Linqvistikanın müxtəlif formalarını birləşdirən şey, dil biliyinin təkcə dil biliyi deyil, həm də dilin vasitəçiliyi ilə dünya təcrübəmiz haqqında biliyi ehtiva etdiyinə inamdır"*[32].

"Koqnitiv dilçilikdə tədqiqatın əsasını təşkil edən mərkəzi fərziyyələrdən biri dildən istifadənin konseptual quruluşu əks etdirməsidir və buna görə də dilin öyrənilməsi dilin əsaslandığı psixi strukturlar haqqında bizə məlumat verə bilər. Buna görə də bu sahənin məqsədlərindən biri düzgün öyrənməkdir. Bu zaman müxtəlif növ linqvistik nitqlərlə hansı növ zehni təsvirlərin qurulduğunu müəyyənləşdirmək lazımdır". C.Fauconnier yazır ki, bu sahədə ilkin tədqiqatlar introspeksiya və rasional əsaslandırma metodlarına əsaslanan nəzəri müzakirələr yolu ilə aparılmışdır. Bu üsullardan bir neçəsini sadalamaq üçün fərziyyənin, inkarın, əks faktların və metaforaların zehni təmsili kimi müxtəlif mövzuları araşdırmaq üçün istifadə edilmişdir[33].

F.Ungerer və H.Şmid yazırlar: *"Təəssüf ki, insanın zehni strukturlarının introspeksiya yolu ilə müşahidəsi onun dəqiqliyi baxımından məhdud ola bilər"*[34].

Koqnitiv dilçilikdə aşağıdakı metodlara diqqət vermək lazımdır:

a) yaddaşın funksiyası;
b) elementin tanınması;
c) oxuma üsulu;
d) özünü hesabat tədbirləri;

---

[31] Evans, V. Cognitive Linguistics: An Introduction. / V.Evans, M.Green. – UK: Routledge, – 2006. – p.15

[32] Geeraerts, D. Cognitive Linguistics. Basic Readings. / D.Geeraerts. – Berlin: Mouton de Gruyter, – 2006. –p.53

[33] Fauconnier, G. Spaces, Worlds, and Grammar (Cognitive Theory of Language and Culture Series). / G.Fauconnier. – Chicago: University of Chicago Press, – 1996. – p.87

[34] Ungerer, Friedrich. An introduction to cognitive linguistics. / Friedrich Ungerer, Schmid Hans-Jörg. – London: Longman, – 1996. (2nd ed., 2006), – p.120

e) dilin başa düşülməsinin sonrakı tapşırığa təsiri və s.[35]

Feilin şəxssiz formalarının koqnitivliyinin müşahidə olunduğu sahələrdən biri cerund və məsdərin işlədildiyi feillər qrupu hesab edilə bilir. Bir nümunə təqdim edək:

"Instead of answering Bella he went on upstairs and into his wife's room. He kissed Mrs.Griffihts, looked in upon Myra, who came to the door to embrace him, and spoke of the successful nature of the trip. One could see by the way he embraced his wife that there was an agreeable understanding between them – no disharmony – by the way he greeted Myra that if did not exactly sympathize with her temperament and point of view, at least he included her within the largess of his affection.

As they were talking Mrs.Truesdale began saying that diner was ready, and Gilbert, having completed his toilet, now entered. Once seated at the table, the family forthwith began discussing topics of current local interest"[36].

Bu nümunədə cerundla işlədilən *to begin* feilindən sonra feilə *– ing* şəkilçisi artırılır və cerund yaranır. Verilmiş mətnin koqnitivliyi feilin işlədildiyi funksiyada müşahidə olunur. Bu mətndə *began saying* və *began discussing* tərz bildirən mürəkkəb feili xəbərin bir hissəsidir.

Azərbaycan dilində nümunə:

Pənah bəy kürəyini ağaca söykəyib iri qara gözləriylə bütün bunları seyr edirdi, təbiətin nəğməsini dinləsə də, fikri qarşıdakı meşədə gözdən itən el yolundaydı, gözləyirdi, o günü gözləyirdi....gözləyirdi o günü.... günlərin bir günü meşəlikdən kəhəri qan-tərə batmış çaparı çıxmalıydı: "Gözlərin aydın, Pənah bəy, ayar olsun gözlərin, şah öldü! Nadir şah Əfşarı öldürdülər! Daha bu gündən sənə zaval yoxdu, bəyim", deməliydi[37].

Bu mətn də feilin formaları ilə zəngindir.

---

[35] Langacker, R.W. Cognitive Grammar. A basic introduction. / R.W.Langacker. – Oxford: Oxford University Press, – 2008. – p.163

[36] Dreiser, Th. American Tragedy. / Th.Dreiser. – USA: Signet, – 2010. – p194

[37] https://mir.az/kitab/234-elxan-elatli-on-dorduncu-adam-pdf.html

Mətndə aparıcı vahid "Pənah bəy"dir və işlədilən feil formaları Pənah bəyin psixoloji durumu təsvir etməyə, təsəvvür etməyə imkan yaradır. Mətndəki feil formaları mətnin koqnitiv və semantik bağlılığının yaranmasına səbəb olur.

Burada diqqəti cəlb edən məsələlərdən biri də bəzi feili birləşmələrin təkrar olunmasıdır. Ə.Abdullayevin də yazdığı kimi, təkrarların mətndüzəltmə funksiyası özünü söz birləşmələrində göstərir[38]. Təkrar olunan söz birləşmələri mətndə aktuallaşır və mətndəki cümlələri bir-birinə bağlayır. Bu mətndə işlədilən söz birləşmələri mətnin məzmununun açılmasında xüsusi rol oynayır.

Feilin şəxssiz formalarının işlədilməsindəki güc və sirr getdikcə artır. Elə bu səbəbdən də onların işlədilməsi maraqlı olduğu qədər də çətindir. P.Roberts yazır ki, əslində, bu feillərdən bəziləri sintaktik funksiyasından, onları müşayiət edən və ya əhatə edən digər sözlərdən asılı olaraq 100% isim və ya sifət hesab edilə bilər (yəni birinci dərəcəli cerundlar və nominallaşmış feili sifətlər və ya indiki və keçmiş zaman feili sifətləri)[39]. Eyni orfoqrafiya, feil və ya isimlə qarşılaşdığımıza qərar verməli olsaq, aradan qaldırılması üçün başqa bir manea ola bilər: Məsələn: to strike feili həm feil, həm də isim ola bilər. Yalnız kontekstdən asılı olaraq, biz onun hansı funksiyada işlədildiyinin şahidi ola bilərik. Məsələn:

/*There has been a strike at a factory today*// (isim) (Bu gün bir fabrikdə tətil olub).

Can lightning strike twice in the same place? (şəxsli feil) (İldırım eyni yerə iki dəfə düşə bilərmi?) (*strike* – sadə feili xəbər)

Did you hear the clock strike nine? (şəxssiz forma) (Saatın doqquzu vurduğunu eşitdinizmi?) (*the clock strike* – tamamlıq məsdər tərkibi, to hear feilindən sonra)

P.Roberts feilin şəxssiz formalarının koqnitiv xüsusiyyətləri barədə yazır: *"Verballar formalarına görə şəxsli formanı xatırlada bilər, lakin onlar predikasiyanı tamamlaya bilməmələri ilə fərqlənir; felin natamamlığını şəxsli feilləri müşayiət edən qəliblərdən*

[38] Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, – 2011. – s.160

[39] Roberts, P. Understanding Grammar. / P.Roberts. – Harper and Brothers Publishers, – 1954. – p.184

fərqlənən çoxsaylı sintaktik nümunələr göstərir. Şəxssiz formanın koqnitiv tərəfi də bu zaman açılır"[40].

Dissertasiyanın ikinci fəslinin ikinci *yarımfəsli "Feilin şəxssiz formalarının işlənməsinin linqvistik təhlili"* adlanır.

Mətnin problemlərinin öyrənilməsinə həsr olunmuş linqvistik mənbələri təhlil edərkən bu anlayışa verilmiş çoxsaylı tərif və şərhlərlə rastlaşırıq. Müasir dilçilik mətnin müxtəlif məktəblərin nümayəndələrini və istiqamətləri razı salacaq vahid anlamını işləyib hazırlamamışdır. Bunun əsas səbəbi kimi mətnin yetərincə öyrənilməsi kimi izah etmək düzgün olmazdır. Əslində, bu mənzərə mətnin müxtəlif aspektlərdən tədqiq olunmasını tələb edən çoxcəhətli hadisə olması ilə bağlıdır.

Müasir dilçilikdə dilin kommunikativ funksiyası onun vahid inteqrasiya funksiyası kimi nəzərdən keçirilir. Bu funksiyanın öyrənilməsi isə tədqiqatçılara dilin əsas mexanizmini işıqlandırmağa imkan verir, çünki mətn dili ünsiyyət vasitəsi kimi reprezentasiya edir, başqa sözlə desək, o, dilin tammənalı vahidi kimi çıxış edir.

Müasir dilçilikdə mətn dil işarələrinin həmin sisteminin daxili qanunauyğunluqları ilə şərtlənmiş əlaqəli ardıcıllığı kimi nəzərdən keçirilir. Bunu cəhəti nəzərə alan P.Hartman yazırdı ki, *"dil ilkin olaraq mətn formasında olur və mətn linqvistik baxımdan ilkin dil işarəsidir, digər dil vahidləri isə linqvistik təhlil vasitəsilə ondan ayırd edilir"* [41] . P.Hartmanın qənaətinə görə, *"dildə ifadə olunmuşların hamısını mətndə işarələmək olar. Dil yalnız mətn formasında görünən olur"*[42].

Ünsiyyət prosesində dilin fəaliyyətinin öyrənilməsi faktı linqvistləri humanitar elmlərin digər sahələrinin nümayəndələri ilə bir araya gətirir. E.V.Paduçevanın qeyd etdiyi kimi, *"dilçilik elmi yalnız danışıq dili, yəni ünsiyyət vasitəsi olan dillə artıq kifayətlənə bilməz. Linqvistik semantika öz vəzifəsini istənilən mətn növünün*

[40] Yenə orada, s.250

[41] Хартманн, П. Текст, тексты, классы текстов /Проблемы теории текста: Реферативный сборник/ П.Хартманн. – М.: Наука, – 1978. – с.17

[42] Hartmann, P. Text, Texte, Klassen von Texten // Bogawus. H. 2. Munster/ Westf, – 1964. – S.16

şərhini işləyib hazırlamaqda görür"[43]. K.M.Abdullayevin fikrincə, *"mətn linqvistikası sahəsində son illərin tədqiqatları göstərir ki, bu sahənin gənc tədqiqat sahəsi olmasına baxmayaraq, o, öz inkişafı ilə dilçiliyin başqa sahələrinin də həll olunmamış məsələlərini işıqlandırmaq iqtidarındadır"*[44].

Təbii ki, mətn dilçiliyi boş yerdə yaranmamışdır. Ritorika, poetika, üslubiyyat, hermenevtika, semiotika, psixolinqvistika, informasiya nəzəriyyəsi və s. elmlərin qovuşuğunda təşəkkül tapan mənt dilçiliyinin yaranması XX əsr dilçiliyində hökm sürən situasiya ilə şərtlənmişdir, çünki məhz bu dönəmdə filologiyanın daxilində mətn təhlilinin linqvistik və ədəbi aspektləri fərqləndirilməyə başlanılmışdı. E.S.Kubryakovanın dili ilə desək, mənt linqvistikasının meydana gəlməsi *"dilçilikdə yeni paradiqmin yaranması və köhnəyə reaksiyanın əlamətidir"*[45].

Mətnin xarakterik əlamətlərini təyin edərkən qeyd etmək lazımdır ki, mətn nitq prosesinin nəticəsi kimi sistemləşmiş və funksional üslubun tələblərinə əsasən ədəbi baxımdan cilalanmış və praqmatik yönümlü bitkin məlumatdır. Mətn dilçiliyinin xüsusi sahə kimi formalaşması filoloji fikrin ümumi inkişafı ilə şərtlənmişdir. Mətnin intensiv öyrənilməsi dildən nitqə, kommunikasiya aktına dönüşün nəticəsidir. Z.Y.Turayevanın da qeyd etdiyi kimi, *"bu maraq həm də mətn vasitəsilə dilin varlığını, onun dil vahidlərinin cümlədən böyük kəsiklərdə fəaliyyətində üzə çıxan qanunauyğunluqlarını dərk etmək cəhdi ilə bağlıdır"*[46].

Azərbaycan dilçiliyində mətn məsələləri ilə məşğul olan tədqiqatçılar arasında K.M.Abdullayevin xüsusi mövqeyi ilə seçilir. Onun fikrincə, mətn *"semantik cəhətdən əlaqəli cümlələrin*

---

[43] Падучева, Е.В. Семантические исследования: Семантика времени и вида в русском языке. Семантика нарратива. / Е.В.Падучева. – М.: Языки русской культуры, – 1996. – с.219

[44] Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. / K.M.Abdullayev. – Bakı: Maarif, – 1998. – s.179

[45] Кубрякова, Е.С. О связях между лингвистикой текста и слово-об¬ра¬зо¬ванием / Лингвистические проблемы текста // – М.: Тр. МГПИИЯ им. М.Тореза. – 1983. Вып. 217, – с. 50

[46] Тураева, З.Я. Лингвистика текста. Текст: структура и семантика. / З.Я.Тураева. – М.: Просвещение, – 1986. – с.5

morfoloji, semantik və prosodik vasitələrin köməyi ilə yaranan ardıcıllığıdır"[47].

F.Y.Veysəllinin fikrincə, *"mətn dil vasitələrindən biridir. İlk baxışdan mətni cümlələr ardıcıllığı kimi təyin etmək olar. Mətn cümlənin hərəkətverici qüvvəsidir"*[48]. *"... mətn müxtəlif hərəkət bildirən dil vahidlərinin xətti ardıcıllığıdır"*[49]. Müəllif həm də mətnin əlamətlərini müəyyənləşdirir: *"1) mətn cümlədən böyükdür, 2) elə danışıq hərəkətləri vardır ki, onları yalnız mətdə vermək mümkündür"*[50]. A.Y.Məmmədovun fikrincə, *"mətn ətraf dünyadan təcrid olunmuş formada mövcud ola bilər. Məsələn, qədim yazılı abidələr. Lakin bu nadir hallardır. Mətn sosial baxımdan şərtlənmiş praqmatik effektə malik olmalıdır"*[51].

Nəzəri mənbələrin təhlili mətn və mətn kateqoriyalarının öyrənilməsi müasir mətn nəzəriyyəsinin ən mübahisəli məsələlərindən biri hesab edilir. Əlaqəlilik kateqoriyası temanın qurulduğu bünövrədir. Koheziya və koherentlik mətndə üst strukturun – qrammatik-sintaktik, leksik, qrafik və alt struktur, yəni məna (semantik) səviyyənin qarşılaşması kimi qiymətləndirilə bilər.

Beləliklə, əlaqəli nitq təkcə məntiqi, qrammatik və üslubi cəhətdən təşkillənmiş cümlələrin sadəcə məcmusu deyil, həm də mənaca bitkin bütövü reallaşdırmaq üçün dil vahidlərinin struktur birliyidir. Əlaqəli nitqin (mətnin) əsas əlamətləri kimi bitkinlik (avtonomluq, qapalılıq, müstəqillik, bitkinlik), əlaqəlik çıxış edir.

Məsələn,

"He knocked softly once, and the footsteps stopped. They stopped for a long time, and when she was awake he'd ***gone*** *away. He heard them cry again, and this time he heard Sava bark. He*

---

[47] Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. / K.M.Abdullayev. – Bakı: Maarif, – 1998. – s.16

[48] Veysəlli, F.Y. Dilçiliyə giriş. Dərs vəsaiti / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2017. – s.390

[49] Yenə orada, – s.396

[50] Yenə orada,– s.295

[51] Məmmədov, A. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Məmmədov, M.Məmmədov. – Bakı: Çaşıoğlu, – 2010. – s.9

stepped out into a hurricane and exclaimed: 'What nice weather we're having'. It was very stupid to call that kind of weather fine!"[52].

Bu mətn parçasında feilin beş şəxssiz forması işlədilib. Gone-feili sifət II; them cry – tamamlıq məsdər tərkibi; Sava bark – tamamlıq məsdər tərkibi; having – feili sifət I; to call – məsdər.

Feilin şəxssiz formalarının mətnin tərkibində işlədilməsi onun mənaca bitkinliyini reallaşdırır. Feilin şəxssiz formalarının işlədilməsi mətnin əlaqəliliyini təmin edir. Düşünürük ki, feilin şəxssiz formaları mətndə kommunikativ istiqamətlilik, kompozisiya strukturu, mətnin məzmunu kimi faktorları ehtiva edə bilir.

Yazılı və şifahi danışıqda çox sayda feilin şəxssiz formasının işlədilməsi çox rast gəlinən haldır.

Tədqiqat işinin sonunda apardığımız araşdırmaların ümumiləşdirmələri nəticə kimi təqdim olunur:

İnsan təfəkkürü olduqca mürəkkəb obyekt hesab olunur və onun konseptual təcəssümü və dildə həyata keçirilməsi ilə bağlı tədqiqatların aparılması olduqca vacibdir.

Dil və təfəkkürün qarşılıqlı təsirinin öyrənilməsi bu qarşılıqlı əlaqənin müxtəlif aspektlərini araşdıran və izah etməyə çalışan müxtəlif elmlərin məqsədidir. Dilçilik də onlardan biri olmaqla həm dilin mahiyyətini dərk etməkdə, həm də dil və təfəkkür arasında mövcud olan əlaqələri və qarşılıqlı asılılığı müəyyən etməkdə böyük yol keçmişdir. Nitqdə düşüncədən sözə keçidin olması, fikrin sözdə formalaşdığı və inkişaf etdiyi son vaxtlar məlum postulat faktı dərk etməklə əvəz edilmişdir.

Aydındır ki, dil və təfəkkürün qarşılıqlı təsirinin dərk edilməsi yalnız dilçilikdə deyil, həm də psixologiya, məntiq və digər elmlərdə aparılan tədqiqatların nəticəsidir. O da göz qabağındadır ki, bu, dil vahidlərini təcrid olunmuş elementlər kimi deyil, onları cümlə – müddəa – kontekst səviyyəsində olan münasibətdə öyrənmək üçün imkanlar vardı. Belə praqmatik yanaşma diqqəti təkcə sözün istifadəsinə deyil, həm də kontekstin digər elementləri ilə qarşılıqlı əlaqə və ya birləşmə yolu ilə əldə etdiyi çoxsaylı nəticələri öyrənməyə imkan verir. Sözün sabit mənasının təhlili deyimin

[52] Steel, D. Zoya. / D.Steel. – USA: Dell Publishing Group, – 1989. – p.90

dəyişən məzmununun nəzərə alınması ilə əvəz olunur və linqvistik vahidin xəbər kontekstində qazandığı məna həlledici olur.

Müasir ingilis dilində feilin şəxssiz formaları məsdər (Infinitive), cerund (Gerund), feili sifət I (Participle I) və feili sifət II (Participle II) kimi müəyyən edilir.

Müasir Azərbaycan dilində feilin təsriflənməyən formaları məsdər, feili sifət və feili bağlama kimi müəyyən edilir.

Feilin şəxssiz formalarından məsdər və cerund prosesi zehni fəaliyyət kimi təqdim etmək qabiliyyətinə malikdir.

Məsdər və cerund prosesi ayrı-ayrı hərəkətlər silsiləsi kimi təmsil etmək qabiliyyətinə malikdir.

Məsdər və cerund hərəkətlərin müddətini və natamamlığını əks etdirə bilir.

Proses anlayışının qeyri-sonlu formalarla təmsil olunması məsdərin və cerundun qrammatik semantikası ilə bir o qədər də müəyyən edilmir, lakin onların leksik semantikasından, xüsusən də qeyri-sonlu formanı əmələ gətirən feilin həddi və ya sonsuzluğundan asılıdır.

Feilin şəxssiz formaları ilə qarşılıqlı əlaqədə olan kontekst elementləri öz həddini dəyişə bilir;

Başlanğıc feilləri gerund və məsdər ilə yüksək uyğunluq dərəcəsinə malikdir.

Məsdər həm əqli, həm də fiziki fəaliyyət prosesini təmsil etmək üçün tez-tez istifadə olunur, cerund isə əsasən fiziki fəaliyyəti əks etdirir.

Məhdudlaşdırıcı feillərin məsdəri çox nadir hallarda hissləri ifadə edən feillərlə işlənir;

Əqli fəaliyyət feillərindən sonra məsdər to ədatsız işlənir.

Bir hərəkəti yerinə yetirmək cəhdini və ya niyyətini bildirən feillər *to try* feili ilə birləşdikdə məsdər çox vaxt uğursuz nəticələnən cəhdi bildirir:

– Arzu, istək feilləri məsdər ilə birləşərək əsas məna ilə yanaşı, hərəkətin başqa dərəcədə ehtimalını da bildirir.

– Məhdudlaşdırıcı feillərin cerundu yalnız xatırlamaq feili ilə birləşir.

– Hissləri ifadə edən feillər istisna olmaqla, üç qrupdan ibarət feillər cerundlarla çox nadir hallarda birləşir və niyyət etmək və unutmaq feilləri ilə belə birləşmələrə ümumiyyətlə rast gəlinmir; qeyri-məhdud feillərin cerundu əsasən sevmək və xatırlamaq feilləri ilə işlənir;

– Müxtəlifsistemli dillərdə məsdərin koqnitiv xüsusiyyəti onun ifadə etdiyi hərəkətlərdə müşahidə olunur. Məsdər hərəkət qeyri-real, mücərrəd və gələcəyə aid olanda işlədilir.

Müasir ingilis dilində cerundun koqnitiv xüsusiyyəti onun ifadə etdiyi hərəkətdə müşahidə olunur. Hərəkət real, konkret, tamamlanmış olanda cerund işlədilir.

Cerundun və feili sifət (I) koqnitiv xüsusiyyətləri onların sintaktik funksiyalarında müşahidə olunur. Cerund cümlədə isim kimi işlənərkən, feili sifətin sifətə və zərfə məxsus əlamətləri vardır.

İndiki zaman feili sifəti yalnız feili sifətin tərkibində mürəkkəb mübtədanın bir hissəsi olduğu halda, cerund cümlədə mübtəda funksiyasında ola bilir.

Aparılan araşdırmanın ümumi və xüsusi cəhətlərini ümumiləşdirib aşağıdakı nəticələri müəyyənləşdirmək olar:

Mövzu ilə bağlı gəldiyimiz nəticələri aşağıdakı kimi ümumiləşdiririk:

1. İnsan təfəkkürü olduqca mürəkkəbdir və onun konseptual təcəssümü, dildə reallaşması ilə bağlı tədqiqatların aparılması olduqca vacibdir.
2. Dil və təfəkkürün qarşılıqlı təsirinin öyrənilməsi bu qarşılıqlı əlaqənin müxtəlif aspektlərini araşdıran və izah etməyə çalışan elmlərin qarşısında duran əsas məqsədlərdəndir. Dilçilik də onlardan biri olmaqla, həm dilin mahiyyətini dərk etməkdə, həm də dil və təfəkkür arasında mövcud olan əlaqələri və qarşılıqlı asılılığı müəyyənləşdirməkdə böyük yol keçmişdir. Nitqdə düşüncədən sözə keçidin olması, fikrin sözdə formalaşdığı və inkişaf etdiyi son vaxtlar məlum postulat faktı dərk etməklə əvəz edilmişdir.
3. Dil və təfəkkürün qarşılıqlı təsirinin dərk edilməsi yalnız dilçilikdə deyil, həm də psixologiya, məntiq və digər elmlərdə

aparılan tədqiqatların nəticəsidir. Bu, dil vahidlərini təcrid olunmuş elementlər kimi deyil, onları cümlə – müddəa – kontekst səviyyəsində olan münasibətdə öyrənmək üçün imkanlar açır. Belə praqmatik yanaşma diqqəti təkcə sözün istifadəsinə deyil, həm də kontekstin digər elementləri ilə qarşılıqlı əlaqə və ya birləşmə yolu ilə əldə etdiyi çoxsaylı nəticələri öyrənməyə yönəldir. Sözün sabit mənasının təhlili söyləmin dəyişən məzmununun nəzərə alınması ilə əvəz olunur və linqvistik vahidin xəbər kontekstində qazandığı məna həlledici olur.

4. Proses anlayışının qeyri-sonlu formalarla təmsil olunması məsdərin və cerundun qrammatik semantikası ilə bir o qədər də müəyyən edilmir, lakin onların leksik semantikasından, xüsusən də qeyri-sonlu formanı əmələ gətirən feilin həddi və ya sonsuzluğundan asılıdır.
5. Feilin şəxssiz formaları ilə qarşılıqlı əlaqədə olan kontekst elementləri öz həddini dəyişə bilir.
6. Başlanğıc feilləri cerund və məsdər ilə yüksək uyğunluq dərəcəsinə malikdir.
7. Məsdər həm əqli, həm də fiziki fəaliyyət prosesini təmsil etmək üçün tez-tez istifadə olunur, cerund isə əsasən fiziki fəaliyyəti əks etdirir.
8. Hissləri ifadə edən feillər istisna olmaqla, üç qrupdan ibarət feillər cerundlarla çox nadir hallarda birləşir və *niyyət etmək (to intend)* və *unutmaq (to forget)* feilləri ilə belə birləşmələrə ümumiyyətlə rast gəlinmir; qeyri-məhdud feillərin cerundu əsasən *sevmək (to love)* və *xatırlamaq (to remember)* feilləri ilə işlənir.
9. Müxtəlifsistemli dillərdə məsdərin koqnitiv xüsusiyyəti onun ifadə etdiyi hərəkətlərdə müşahidə olunur. Məsdər hərəkət qeyri-real, mücərrəd və gələcəyə aid olanda işlədilir.
10. Müasir ingilis dilində cerundun koqnitiv xüsusiyyəti onun ifadə etdiyi hərəkətdə müşahidə olunur. Hərəkət real, konkret, tamamlanmış olanda cerund işlədilir.
11. Cerundun və feili sifət (I) koqnitiv xüsusiyyətləri onların sintaktik funksiyalarında müşahidə olunur. Cerund cümlədə isim

kimi işlənərkən, feili sifətin sifətə və zərfə məxsus əlamətləri vardır.

12. İndiki zaman feili sifəti yalnız feili sifətin tərkibində mürəkkəb mübtədanın bir hissəsi olduğu halda, cerund cümlədə mübtəda funksiyasında ola bilir.

Dissertasiya işinin məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:

1. Mətnlərin kommunikativ aspekti barədə // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. №4, –s.73-75;
2. Müxtəlifsistemli dillərdə feilin şəxsli və şəxssiz formaları // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2019. №3, – s.29-34;
3. Müxtəlif dillərdə feil paradiqmlərinin xüsusiyyətləri // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. №1, – s.166-170;
4. Feilin koqnitiv semantikası // Elmlərarası inteqrasiya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər beynəlxalq elmi konfransın materialları, Azərbaycan Respublikası Təhsil Nazirliyi, – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 2019, – s.329-330;
5. Müasir ingilis dilində feillərin təsnifatı // – Bakı: Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında Terminologiya Komissiyası, Terminologiya məsələləri, – 2020. №2, – s.124-127;
6. Feilin nitq hissələri sistemində yeri // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2020. №2, – s.25-29;
7. On the cognitive semantics of the verbals // Advanced Science, XI International Scientific Conference, International Centre for Scientific Cooperation “Science and Education”, – Пенза: РФ, – – 2020, – p.151-153;

8. Some facts about the taxonomy of the verbs // Фундаментальные и Прикладные Научные Исследования, Актуальные Вопросы, Достижения и Инновации, Сборник Статей XXXVI Международной Научно-Практической Конференции, Международный центр научного сотрудничества, «Наука и просвещение», – Пенза: РФ, – 2020, – p.213-215;
9. On cognitive semantics of the verbals (non-finite forms of the verb) // – Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2021. №12, – s.86-91;
10. Некоторые факты о неличных формах глагола // Science, Education, Innovation, International Scientific Conference, Сборник Статей Международной Научно-Практической Конференции, Международный центр научного сотрудничества, «Наука и просвещение», – Пенза, РФ, –2021, – с.86-88.
11. The verb and the verbals (the non-finite forms of the verb) – Вчені Записки Таврійського Національного Університету імені В.І.Вернадського Серія: Філологія. Журналістика, – 2021. Том 32(71) №6, Ч.1, s.151-157.
12. Feilin xarici dilçilikdə tədqiqi – Bakı: Elmi Xəbərlər, – 2022. №2, – s.56-61;
13. Müasir ingilis dilində indiki zaman feili sifəti və cerund – Bakı: "Xarici dillərin tədrisinin aktual problemləri". Respublika elmi-praktik konfransı. Tezislər toplusu, – 2022, s.92-93;
14. Participle I as a form of the verb // На Перекрестке Культур: Единство Языка, Литературы и Образования – IV, – Могилев, – 2024, p.190-192;

Dissertasiyanın müdafiəsi 15 Dekabr 2026-cı il tarixində saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 13 Noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 05.11.2026

Kağız formatı: 60x84 16/1

Həcm: 46 328

Tiraj: 100